**Əməkdaşlıq fəaliyyətləri**

- Argentina Respublikasında 2025-ci ilin 3–4 sentyabr tarixlərində keçirilmiş Azərbaycan–Argentina Ticarət və İqtisadi Əməkdaşlıq üzrə Birgə İşçi Qrupunun 2-ci iclasında Agentliyin nümayəndəsi iştirak etmişdir. Səfər zamanı Argentina Respublikasının Kənd Təsərrüfatı–Ərzaq Sağlamlığı və Keyfiyyəti Dövlət Xidməti (SENASA) ilə keçirilən görüşdə baytarlıq və bitki karantini sahələrində əməkdaşlıq sazişlərinin layihələri müzakirə olunmuş, tərəflər arasında gələcək virtual görüşlərin təşkili və sazişlərin yekunlaşdırılaraq imzalanması barədə razılıq əldə olunmuşdur. Eyni zamanda ekvivalentliyin tanınması, yüksək riskli məhsulların ixrac prosedurları və quş qripindən azadolma mexanizmi ilə bağlı məsələlər diqqət mərkəzində olmuşdur.
- Argentinanın qida təhlükəsizliyi sisteminin beynəlxalq standartlara və Azərbaycan Respublikasının milli qida təhlükəsizliyi sisteminə uyğunluğunu nəzərə alaraq, həmçinin aparılmış təhlillərə əsaslanaraq, Azərbaycan Respublikasının “Qida təhlükəsizliyi haqqında" Qanunundan irəli gələrək 2025-ci il 1 avqust tarixində Argentinanın qida təhlükəsizliyinə nəzarət sisteminin ekvivalentliyinin tanınması barədə AQTA tərəfindən qərar qəbul edilmişdir. Nəticədə, Argentinanın yüksək riskli qida və yem məhsulları istehsal edən müəssisələri Agentlik tərəfindən əlavə qiymətləndirmə tədbirləri aparılmadan Argentinada qeydiyyata alındıqdan və (və ya) təsdiq edildikdən sonra öz məhsullarını Azərbaycan Respublikasına ixrac edə biləcəklər.
- 2025-ci il 6 may tarixində Agentlik sədri ilə Argentina Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri arasında Agentlikdə görüş keçirilmiş və görüşdə Argentinadan Azərbaycana heyvan mənşəli məhsulların ixracı üçün qida obyektlərinin Agentlik tərəfindən təsdiqi və təsdiq sistemlərinin qarşılıqlı tanınması mexanizminin hazırlanması ilə bağlı məsələlər müzakirə edilmişdir.
- 2019-cu il 20 may tarixində AQTA sədri və Argentina Respublikasının Azərbaycandakı səfiri arasında Agentlikdə görüş keçirilmiş və görüşdə Agentliyin Argentina Respublikasının müvafiq qurumu ilə mümkün əməkdaşlıq imkanları və baytarlıq sahəsində iki ölkə arasında münasibətlərin müzakirəsi, eyni zamanda ölkələr arasında qida sahəsində ikitərəfli əlaqələrin inkişaf perspektivləri haqqında fikir mübadiləsi aparılmışdır.
- “Azərbaycan Respublikası Hökuməti ilə Argentina Hökuməti arasında bitki mühafizəsi və karantini sahəsində əməkdaşlıq haqqında” və “Azərbaycan Respublikası Hökuməti ilə Argentina Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında” sazişlərinin razılaşdırılması üzrə müvafiq işlər aparılmaqdadır.